ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

NİZAMİ ƏSGƏROV

# DOĞMA AZƏRBAYCANIM

**QARMON İFAÇISI**
**NİZAMİ ƏSGƏROVUN**
**RƏQS MELODİYALARI**

Bakı – 2025

**Layihə rəhbəri:** **Fərhad BƏDƏLBƏYLİ**
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru,*
*SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, professor*

**Elmi redaktor:** **Gülnaz ABDULLAZADƏ**
*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,*
*fəlsəfə elmləri doktoru, professor*

**Not yazısı:** **Rauf BƏHMƏNLİ**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Tərtibatçı:** **Səadət VERDİYEVA**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **Əkbər QOŞALI**
*Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti,*
*Beynəlxalq "Alaş" ədəbi mükafatı laureatı*

**Elnara DADAŞOVA**
*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar, professor*

**Malik QULİYEV**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*

Məcmuədə Azərbaycanın tanınmış qarmon ifaçısı Nizami Əsgərovun müəllifi olduğu 12 rəqs melodiyasının not yazısı işıqlandırılmışdır. Təqdim edilmiş bu məcmuə xalq sevgisi qazanmış ustad ifaçının ilk dəfə 2023-cü ildə nəşr edilmiş "Vətən təranələri" kitabının davamı olaraq, daha 12 rəqs havasını da özündə əks etdirmişdir

**Doğma Azərbaycanım. Qarmon ifaçısı Nizami Əsgərovun rəqs melodiyaları.**
**Bakı, "İmza Nəşrlər Evi", 2025, 24 səh.**

ISBN 978-9952-8176-5-6

**© Nizami Əsgərov, 2025**

# ÖN SÖZ

Azərbaycan xalq musiqisinin çox geniş yayılmış janrlarından biri də rəqslərdir. Mədəniyyət incilərimizdən sayılan rəqs sənəti qədim dövrlərdən zəmanəmizə kimi yaşayaraq xalqımızın adət-ənənəsini, yaşam tərzini, sevinci, sevgisi, qəhrəmanlığını və digər yüksək dəyərlərini özündə əks etdirmişdir.

Rəqs deyərkən, ilk növbədə hansısa el şənliyində və ya toy məclisində qol qaldırıb oynayan insan obrazları göz önündə canlanır. Yəni rəqs – oynamaq üçün yaradılmış bir janrdır. Tarix boyu Azərbaycan xalqının həyatında rəqs janrı böyük əhəmiyyət kəsb edib. Rəqs etməyi çox sevən xalqımız hər bir xoşbəxt günündə, sevincli anlarında qol qaldırıb oynayıblar. Çünki bu xalqın kökündə, qanında, canında musiqi, ritm olub. Buna bizim "Yallı"larımız, "qopuz"umuz, "qavaldaş"ımız tarixi mədəni sübutdur.

Azərbaycan milli musiqisinin, xüsusilə də folklor musiqi nümunələrinin uzun illər ərzində aparılan tədqiqatları sayəsində aşkar edilmişdir ki, dədə-babalarımızdan bizə miras qalmış xalq musiqi irsimizin zəngin olmasına rəğmən, çox sayda xalq mahnı və rəqs melodiyalarımız zamanın keşməkeşli axarında unudulmuş, hafizələrdən silinmişdir.

Keçmişdə yaranmış və xalq sevgisi qazanaraq məşhurlaşmış, nəsilbənəsil ötürülməklə hər zaman hafizələrdə yaşayaraq, günümüzəcən gəlib çatmış bir çox rəqs havalarımızın adları, müəlliflərinin kimliyi unudulduğundan, el arasında "xalq rəqsi" kimi tanınmış və ifa edilmişdir.

Kiçikhəcmli rəqs melodiyaları çox zaman instrumental ifaçılar tərəfindən yaradılır. Bəstəçilik qabiliyyəti olan, muğam dəstgahlarını, onların quruluşundakı şöbələri yaxşı bilən və bir-birindən bənzərsiz melodiyalar yaradan istedadlı musiqiçilər hər bir dövrdə olmuş və bu gün də çoxluq təşkil edir. Onların arasında elə ifaçılar olub ki, yaratdıqları hər bir melodiya xalq tərəfindən sevilmiş və digər musiqiçilərin də zövqünü oxşayaraq, onların repertuarında da yer almışdır.

Belə musiqiçilərdən biri də ustad qarmon ifaçısı Nizami Cərulla oğlu Əsgərovdur. Onun biri-birindən bənzərsiz, qəlboxşayan melodiyaları qısa zaman ərzində xalq

sevgisi qazanaraq el-obasının, eləcə də Azərbaycanın digər bölgələrinin toy şənliklərini bəzəmiş. Xalqın sevimli rəqslərinə çevrilmişdir. Vətəninə, xalqına bağlı olan sənətçi yaratdığı bir çox rəqs havalarını Azərbaycana, onun səfalı bölgələrinə, Qarabağa, tarixi torpaqlarımız olan İrəvana, Zəngəzura və s. həsr etmişdir. Təqdim olunan bu məcmuədə müəllifin "Şuşa", "Xankəndim", "Göyçə gölü", "Zəngəzur", "Bakı yallısı", "Xəzərim" rəqs melodiyaları onun dövlətinə, millətinə olan sədaqətinin bariz nümunəsidir.

Biz inanırıq ki, Nizami Əsgərov bundan sonra da öz yeni melodiyaları ilə xalqımızın ruhunu oxşayacaq, milli musiqi mədəniyyətimizin zənginləşməsinə öz töhfəsini verəcəkdir.


*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,*

*Fəlsəfə elmləri doktoru, professor*

**GÜLNAZ ABDULLAZADƏ**

# 1. ZƏNGƏZUR



## 2. ŞUŞA



## 3. AYDAN



## 4. XƏZƏRİM



## 5. MƏRYƏM

**Allegro**




1.
2.
tr

# 6. GÖYÇƏ GÖLÜ



# 7. FİDAN



# 8. BAKI YALLISI

I




II



# 9. AYLİN



# 10. XANKƏNDİM



# 11. ZƏRİFİ



# 12. GƏNCLİK RƏQSİ



## RƏQSLƏR HAQQINDA

**ZƏNGƏZUR** (№ 1) – rəqsinə toponim olaraq qədim Azərbaycan ərazisi sayılan böyük bir mahalın adı verilmişdir. Bu mahal İrəvanın cənub hissəsindəki Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri (Meğri) rayonlarını, Azərbaycanın isə Zəngilan, Qubadlı və Laçın rayonlarının bir hissəsini əhatə edən geniş tarixi əraziyə malikdir. Zəngəzur sözü iki kəlmədən; "zəngi" və "zur" sözlərindən yaranmışdır. "Zəngi" – qədim mənbələrdə "Sanqi" kimi adlanmış türk tayfasının adıdır. Zəngilər əsasən, Qərbi Azərbaycanın İrəvan mahalı ərazisində yaşamışlar. Bu gün tanıdığımız Zəngibasar, Zəngiçay, Zəngilan və s. terminləri məhz bu tayfanın adı və məskunlaşdığı ərazilərlə bağlıdır. Rəqsin adındakı "zur" sözü isə türk dilində "dərə" mənasını daşıyır. Ümumən "zəngəzur" sözünün mənası zəngilərin yaşadığı ərazi (məkan) deməkdir.

Müəllif Azərbaycanın qədim tarixi ərazisi sayılan Zəngəzura həsr etdiyi bu rəqs melodiyasını 2024-cü ildə yaratmışdır. Rəqsin melodik məzmunu "re" mayəli "Şüştər" məqamında, 6/8 vəzn ölçüsündə, *"allegro"* tempində nota alınmışdır.

**ŞUŞA** (№ 2) – rəqsi Azərbaycan Respublikasının tarixi ərazisi olan Qarabağ bölgəsinin əsas şəhərlərindən biri, mədəniyyət paytaxtı sayılan Şuşaya həsr edilərək, onun adını daşıyır. Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş, ilk çağlarda Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahəli kimi də adlanmışdır.

Müəllif "Şuşa" adlandırdığı rəqsi 2022-ci ildə bəstələmişdir. Rəqsin melodik məzmunu "mi" mayəli "Segah" məqamında, 6/8 vəzn ölçüsündə, *"presto"* tempində nota alınmışdır.

**AYDAN** (№ 3) – rəqsini müəllif əmisi Əvəz Əsgərovun nəvəsinə həsr edərək, onun şərəfinə adlandırmışdır. Rəqsin melodiyası 2024-cü ildə bəstələnmişdir.

Rəqsin melodik məzmunu "re" mayəli "Çahargah" məqamında, 6/8 və 3/4 ölçülərinin qarışıq vəznlərində, *"allegro"* tempində nota alınmışdır.

**XƏZƏRİM** (№ 4) – rəqsi Avropa və Asiya qitələrinin kəsişməsində yer almış, Yer kürəsində ən böyük göl olub, ərazisinə və ölçüsünə görə dəniz adlanan Xəzərə həsr edilib. Bizə Azərbaycanımız qədər doğma olan Xəzərə vəsf etdiyi rəqs havasını müəllif 2025-ci ildə yaratmışdır.

“Qaytağı” ritmində ifa edilən rəqsin melodik məzmunu “fa” mayəli “Rast” məqamında, 6/8 və 3/4 ölçülərinin qarışıq vəznlərində, *“allegro”* tempində nota alınmışdır.

**MƏRYƏM** (№ 5) – rəqsini müəllif, qardaşı Vaqifin hazırda Rusiya Federasiyasının Moskva şəhərində yaşayan nəvəsinə həsr edərək, onun şərəfinə adlandırmışdır. Rəqsin musiqisi 2023-cü ildə bəstələnmişdir.

Rəqsin melodik məzmunu “sol” mayəli “Bayatı-Şiraz” məqamında, 6/8 vəzn ölçüsündə, *“allegro”* tempində nota alınmışdır.

**GÖYÇƏ GÖLÜ** (№ 6) – rəqsinə tarixən Qərbi Azərbaycan ərazisinə aid edilən, hələ “Kitabi Dədə Qorqud” dastanında “Göyçə Dəniz” kimi adı çəkilən, Cənubi Qafqazda ən iri gölün adı verilmişdir. Müəllif rəqs havasını 2024-cü ildə yaratmışdır.

Rəqsin melodik məzmunu “mi” mayəli “Segah” məqamında, 6/8 və 3/4 ölçülərinin qarışıq vəznlərində, *“allegro”* tempində nota alınmışdır.

**FİDAN** (№ 7) – rəqsini müəllif qardaşının istəkli nəvəsinə həsr edərək, onun şərəfinə adlandırmışdır. Rəqsin musiqisi 2022-ci ildə bəstələnmişdir.

Rəqsin melodik məzmunu “re” mayəli “Bayatı-Şiraz” məqamında, 6/8 və 3/4 ölçülərinin qarışıq vəznlərində, *“allegro”* tempində nota alınmışdır.

**BAKI YALLISI** (№ 8) – rəqsini müəllif 2021-ci ildə yaratmışdır. İki hissədən ibarət yallı havası doğma Bakımıza həsr edilmişdir.

Rəqsin "Rast" məqamında səslənən melodiyasının birinci hissəsi 2/4 ölçüsündə, ağır *(andante)* tempdə, ikinci hissəsi isə 6/8 vəzn ölçüsündə, oynaq *(allegro)* tempdə nota alınmışdır.

**AYLİN** (№ 9) – rəqsini müəllif, qohumu Azər Topçubaşovun qızına həsr etmiş və onun şərəfinə adlandırmışdır. Rəqsin musiqisi 2025-ci ildə bəstələnmişdir.
Rəqsin melodik məzmunu "sol" mayəli "Şur" məqamında, 6/8 vəzn ölçüsündə, *"vivo"* tempində nota alınmışdır.

**XANKƏNDİM** (№ 10) – rəqsinə XVIII əsrdə təməli qoyulmuş, Qarabağ xanlığı tərəfindən Xankəndi adı ilə ("Xanın kəndi" mənasını daşıyan) yaradılmış tarixi ərazimizin adı verilmişdir. Rəqsin musiqisini müəllif 2024-cü ildə bəstələmişdir.

"Marş" xarakterli rəqsin melodik məzmunu "sol" mayəli "Şüştər" məqamında, 2/4 vəzn ölçüsündə, *"moderato"* tempində nota alınmışdır.

**ZƏRİFİ** (№ 11) – rəqsini müəllif həm nənəsi Zərif xanımın əziz xatirəsinə ithaf etmiş, həm də qardaşı Vaqif Əsgərovun nənənin şərəfinə adlandırdığı nəvəsinə həsr etmişdir. Rəqsin musiqisi 2022-ci ildə bəstələnmişdir.

Rəqsin melodik məzmunu "sol" mayəli "Bayatı-Şiraz" məqamında, 6/8 vəzn ölçüsündə, *"allegro"* tempində nota alınmışdır.

**GƏNCLİK RƏQSİ** (№ 12) – rəqsini müəllif, xalqımızın milli ruhunu gələcəyə aparan yeni nəslin gənclik həyatına, sabaha addımlayan gənclərimizin işıqlı yoluna həsr etmişdir.

2025-ci ildə yaranmış rəqsin melodik məzmunu "fa" mayəli "Rast" məqamında, 6/8 vəzn ölçüsündə, *"vivo"* tempində nota alınmışdır.

# MÜNDƏRİCAT


ÖN SÖZ ....................................................................................................3

1. ZƏNGƏZUR ..........................................................................................5

2. ŞUŞA ...................................................................................................6

3. AYDAN .................................................................................................7

4. XƏZƏRİM ............................................................................................8

5. MƏRYƏM .............................................................................................9

6. GÖYÇƏ GÖLÜ ....................................................................................11

7. FİDAN ...............................................................................................12

8. BAKI YALLISI .....................................................................................13

9. AYLİN ................................................................................................14

10. XANKƏNDİM ....................................................................................15

11. ZƏRİFİ ..............................................................................................16

12. GƏNCLİK RƏQSİ ..............................................................................17

RƏQSLƏR HAQQINDA ...............................................................................18

## QEYD

# QEYD

Çapa imzalanmışdır: 22.05.2025
Kağız formatı: 60x84 1/16
Həcmi: 1.5 ç.v
Sifariş: 46
Tiraj: 100
"İmza Nəşrlər Evi"
nəşriyyatında nəşrə
hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.